**“Yunayetd Kredit Bank” Açıq Səhmdar Cəmiyyətinin**

# FAIZ SIYASƏTI

**Mündəricat**

1. Ümumi müddəalar........................................................................................ 3
2. Resursların yerləşdirilməsində faiz siyasətinin əsas prinsipləri......................... 3
3. Resursların cəlb edilməsində faiz siyasətinin əsas prinsipləri ........................... 4
4. Bankın ümumi və konkret əməliyyatlar üzrə faiz siyasəti................................ 5
5. Cəlb edilən və yerləşdirilən resurslara görə faiz dərəcəsinin təyin edilməsi üzrə qərarların qəbul edilməsi........................................................................... 7

## 1. Ümumi müddəalar

1.1. Bu Siyasət Azərbaycan Respublikasında qüvvədə olan qanunvericilik aktları əsasında hazırlanmış və "Yunayted Kredit Bank" ASC-nin (bundan sonra "Bank") yerləşdirdiyi və cəlb etdiyi pul vəsaitləri üzrə faiz dərəcəsinin təyin edilməsinin əsas prinsiplərini təyin edir və Bankın faiz siyasətini müəyyənləşdirir.
1.2. Siyasətin əsas məqsədi pul vəsaitlərinin yerləşdirilməsi və cəlb edilməsi əməliyyatlarında Bankın maksimal olaraq maliyyə nəticələri əldə etməsindən ibarətdir.
1.3. Faiz gəlirləri və xərcləri ilə bağlı əməliyyatları Bankın aşağıdakı struktur bölmələri həyata keçirir:

• Müştəri xidməti göstərən struktur bölmələri (filial və şöbələr);
• Kredit şöbəsi.

1.4. Bank əməliyyatlarının aparılması zamanı yerləşdirilən və cəlb edilən pul vəsaitləri üzrə faiz dərəcəsinin müəyyənləşdirilməsində müvafiq struktur bölməsi Azərbaycan Respublikasının qanunvericiliyini, Milli Bankın normativ xarakterli aktlarını, bu Siyasəti və bankdaxili qayda və təlimatları rəhbər tutmalıdırlar.
1.5. Bu Siyasətinin əsasında müvafiq qayda və təlimatların hazırlanmasına və həyata keçirilməsinə görə İdarə Heyəti cavabdehdir.

## 2. Resursların yerləşdirilməsində faiz siyasətinin əsas prinsipləri

2.1. Pul vəsaitlərinin yerləşdirilməsi üzrə faiz dərəcəsinin formalaşması və reallaşdırılması zamanı aşağıdakılar nəzərə alınır:
• Milli Bankın cari yenidən maliyyələşmə dərəcəsinin səviyyəsi;
• Likvid qısamüddətli dövlət qiymətli kağızlarının gəlirlilik norması;
• Konkret alətlər üzrə vəsaitlərin yerləşdirilməsi zamanı maliyyə bazarındakı şərtlər (banklararası kreditlər, istehlak kreditləri, biznes kreditləri və s.)
• Pul vəsaitlərinin cəlb edilməsi üzrə Bankın real imkanları (müddət, valyuta, dəyəri nöqteyi nəzərdən)
• Tərəfdaşlarla yaranmış işguzar və kommersiya münasibətləri;
• Bankın əldə edəcəyi gəlir.
2.2. Resursların yerləşdirilməsində Bankın apardığı faiz siyasətinin əsas prinsipi balanslaşdırılmış aktivlər və yerləşdirilmiş vəsaitlərin qaytarılmaması riskinin minimal səviyyəsinə nail olmaqla maksimal gəlirliliyinin təmin edilməsindən ibarətdir.
2.3. Resursların yerləşdirilməsi zamanı aşağıdakı prinsiplər nəzərə alınır:
• Yerləşdirilən vəsaitlərin istiqamətindən, müddətindən, kontragentlərin maliyyə dayanıqlılığı və etibarlılığı dərəcəsindən, kredit tarixçəsindən, təmin olunma dərəcəsindən asılı olaraq faizlərin differensiyasiyası prinsipi;

• Aparılan bank əməliyyatlarının rentabelliliyinin təmin edilməsi prinsipi (resursların real dəyəri nəzərə alınmaqla);
• Likvidliyin yüksək səviyyədə saxlanılması prinsipi;
• Aktiv əməliyyatlara qoyulan müştəri vəsaitlərinin maksimal qorunması prinsipi;
2.4. Bankın faiz siyasətinin səmərəliliyinin təmin edilməsi üçün yuxarıda sadalanan bütün prinsiplər uzlaşdırılır.

## 3. Resursların cəlb edilməsində faiz siyasətinin əsas prinsipləri

3.1. Resursların cəlb edilməsi zamanı Bankın faiz siyasəti həm resursların yerləşdirilməsində, həm də, depozit siyasəti üzrə Bankın siyasətilə sıx bağlıdır.
3.2. Resursların cəlb edilməsi zamanı Bankın faiz siyasəti cəlb edilən vəsaitin real dəyərinə təsir edən aşağıdakı göstəricilər nəzərə alınmalıdır:
• Milli Bankın təyin etdiyi məcburi ehtiyyat fonduna ayırmalar;
• Müştərilərin cəlb edilməsi və xidməti ilə bağlı əməliyyat xərcləri;
• Reklam xərcləri;
• Cəlb edilən vəsaitlərin bir hissəsinin gəlir gətirməyən sahələrə ayrılması;
• Cəlbetmənin müddəti və məbləği, faizlərin hesablanması və ödənilməsi rejimi.
• Cəlb edilən və yerləşdirilən vəsaitlərin arasında olan müddət fərqi.
3.3. Resursların cəlb edilməsində Bankın faiz siyasəti aşağıda göstərilənlərdən asılı olaraq qurulur:
• Resursların cəlb edilməsində istifadə olunan bank alətləri;
• Depozit əməliyyatlarının subyektləri (fiziki və hüquqi şəxslər);
• Cəlb edilən resursların müddəti;
• Cəlbetmənin məqsədi (investisiya, kreditləşmə, likvidliyin saxlanması);
• Resurs cəlbetmə məsələlərində, bununla bağlı qiymət siyasəti və aparılan əməliyyatların risklilik dərəcəsi məsələlərində aqressivlik;
3.4. Resursların cəlb edilməsində Bank faiz siyasətini apararkən aşağıdakı prinsipləri nəzərə almalıdır:
• əmanətin müddətindən və həcmindən asılı olaraq faizin differensiallaşdırılması;
• bank fəaliyyətinin rentabelliyinin təmin edilməsi;
• əmanətlər üzrə faizlərin "sosial" differensiallaşdırılması;
• əmanətçilərin əmanətlərinin qorunması;
3.5. Bankın faiz siyasətinin səmərəliliyinin təmin edilməsi üçün yuxarıda sadalanan bütün prinsiplər uzlaşdırılır.

## 4. Bankın ümumi və konkret əməliyyatlar üzrə faiz siyasəti

4.1. Bankın ümumi əməliyyatlar üzrə faiz siyasəti

4.1.1. Əsas maliyyə alətlərinin gəlirliliyi nəzərə çarpacaq dərəcədə azaldığı təqdirdə belə, Bankın ümumi faiz siyasəti resursların yerləşdirilməsindən əldə edilən orta gəlirliyin azalmasının minimallaşdırılması üçün zəruri tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.
4.1.2. Bu problemin həlli aşağıdakı vəzifələrin yerinə yetirilməsi üzərində qurulur:
• Maliyyə bazarında şəraitin dəyişməsi və resursların yerləşdirilməsindən alınan gəlirin azaldığı halda cəlb edilən vəsaitlərə görə faiz dərəcəsinə vaxtında yenidən baxılması;
• İşlək aktivlərin strukturunun mütəmadi olaraq daha gəlirli sahələrin xeyrinə dəyişilməsi prosesinin təkmilləşdirərək konkret alətlərin gəlirliyinin azalmasından yarana biləcək itkilərin minimuma endirilməsi;
4.2. Bankın vəsaitlərin yerləşdirilməsi ilə bağlı konkret əməliyyatlar üzrə faiz siyasəti

**Kommersiya və istehlak kreditləşməsi**

4.2.1. Kommersiya və istehlak kreditləşməsi zamanı Bankın faiz siyasəti bu Siyasətin 2-ci hissəsində göstərilən ümumi prinsiplər əsasında qurulur və, xüsusilə, Milli Bankın cari yenidən maliyyələşmə dərəcəsinin səviyyəsi və kredit bazarının şərtləri, həmçinin konkret borcalan üzrə faiz dərəcəsinin təyin olunmasında ayrıca yanaşma nəzərə tutur.
4.2.2. Fiziki və hüquqi şəxslərin kreditləri üzrə faiz dərəcəsi təyin olunarkən borcalanın bir sıra xüsusiyyətləri nəzərə alınır:

- Kredit tarixçəsi;
- Bank biznesinin inkişafı nöqteyi nəzərindən Bankın borcalana münasibəti;
- Təminat;
- Kreditə ayrılan resursun dəyəri;
- Əməliyyat gəlirliliyi.

4.2.3. Konkret kredit üzrə faiz dərəcəsini kreditin verilməsinə səlahiyyətli orqan müəyyən edir.

**Banklararası kreditləşmə**

4.2.4. Banklararası kreditləşmə zamanı Bankın faiz siyasəti bu Siyasətin 2-ci hissəsində göstərilən ümumi prinsiplər əsasında qurulur. Konkret zaman anında hər bir kredit üzrə faiz dərəcəsinə maksimal dərəcədə təsir edən əsas amil digər bankların pul vəsaitinə olan tələbi və resursların bazar dəyəridir.
4.2.5. Bank yalnız etibarlı və sağlam maliyyə vəziyyəti olan banklarla əməkdaşlıq etməklə əvvəlcədən müəyyən edilmiş limitlər çərçivəsində müvəqqəti azad vəsaitləri əsasən qısa müddətə yerləşdirilməsini həyata keçirir.

4.3. Bankın vəsaitlərin cəlb edilməsi ilə bağlı konkret əməliyyatlar üzrə faiz siyasəti

**Hüquqi şəxslərin depozitləri**

4.3.1. Hüquqi şəxslərin depozitləri üzrə Bankın faiz siyasəti aşağıdakıları nəzərdə tutur:
A) Konkret hüquqi şəxslə əldə olunan razılaşma istisna olmaqla, hüququ şəxslərin cari hesablarında olan qalıqlara görə faiz ödənilmir.
B) Müddətli depozitlərə görə İdarə Heyəti tərəfindən müəyyən edilmiş baza faiz dərəcəsi üzrə faiz ödənilir. Konkret hüquqi şəxsin depoziti üzrə faiz dərəcəsinin depozit müddəti bitmədən dəyişdirilməsi qüvvədə olan normativ-hüquqi aktlar əsasında və tərəflər arasında bağlanmış müqavilənin şərtləri uyğun mümkündür.
4.3.2. Hüquqi şəxslər üçün təyin edilmiş baza faiz dərəcəsi depozit müddəti, məbləği və valyutasından asılı olaraq differensiallaşdırılır.

**Fiziki şəxslərin depozitləri**

4.3.3. Fiziki şəxslərin depozitləri üzrə Bankın faiz siyasəti aşağıdakıları nəzərdə tutur:
A) Konkret fiziki şəxslə əldə olunan razılaşma istisna olmaqla, fiziki şəxslərin cari hesablarında olan qalıqlara görə faiz ödənilmir;
B) Müddətli depozitlərə görə baza faiz dərəcəsi üzrə faiz ödənilir.
4.3.4. İdarə Heyəti tərəfindən müəyyən edilmiş baza faiz dərəcəsi bank bazarında fiziki şəxslərdən cəlb edilən vəsaitlərə görə orta faiz dərəcəsi əsasında müəyyən edilir. Fiziki şəxslər üçün təyin edilmiş baza faiz dərəcəsi depozit müddəti, məbləği və valyutasından asılı olaraq differensiallaşdırılır.

**Digər banklardan cəlb edilən kredit və depozitlər**

4.3.5. Digər banklardan vəsaitlərin cəlb edilməsində Bankın faiz siyasəti aşağıdakı faktorlardan asılıdır:

- Banklararası bazarda vəsaitlərin cəlb edilməsi və yerləşdirilməsi şərtləri;
- Cəlb edilən vəsaitinin Bank üçün zərurilik dərəcəsi;
- Bankın digər mənbələrdən vəsait cəlb etmək imkanları və bu mənbələrdən cəlb edilən vəsaitlərin dəyəri

4.3.6. Bank banklararası bazardan resursların cəlb edilməsinə ehtiyyatla yanaşmalı və bu addımı yalnız xüsusi zərurət olduqda (likvidliyin və ödəniş qabiliyyətinin qorunması), həmçinin cəlb edilən vəsaitin yerləşdirilməsindən iqtisadi gəlir əldə etmək perspektivi olduğu halda atmalıdır.

## 5. Cəlb edilən və yerləşdirilən resurslara görə faiz dərəcəsinin təyin edilməsi üzrə qərarların qəbul edilməsi

5.1. Cəlb edilən və yerləşdirilən resurslara görə faiz dərəcəsinin təyin edilməsi aşağıdakı orqanlar tərəfindən həyata keçirirlir:

- İdarə Heyəti müəyyən bir müddət üçün (bir qayda olaraq – rüblük) dövrü olaraq cəlb edilən vəsaitlərə görə faiz dərəcəsinin çərçivəsini, konkret müştəri üzrə individual olaraq faiz dərəcəsini təyin edir;
- Kredit Komitəsi konkret kredit üzrə faiz dərəcəsini təyin edir;
- İdarə Heyətinin üzvü konkret müştəri üzrə ümumi faiz siyasətinə zidd olmayan dəyişiklik edə bilər;
- Risklərin İdarə olunması və kredit şöbəsinin müdiri Bankın ümumi faiz siyasətinə uyğun və İdarə Heyətinin verdiyi səlahiyyətlər və limitlər çərçivəsində banklararası bazarda vəsaitlərin cəlb edilməsi və yerləşdirilməsi üzrə faiz dərəcəsini təyin etmək, müəyyən gəlir etmək üçün qiymətli kağızları alır və satır.

## 6. Yekun müddəalar

Bu Siyasət Müşahidə Şurası tərəfindən qəbul edildiyi gündən qüvvəyə minir.